

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 sentyabr 2026-cı il, şənbə
№ 170 (7237)
Qiyməti 60 qəpik


## Təhlükəsizlik, həmrəylik və vahid mövqe...



Bax səh. 3



## Liderin qətiyyəti, xalqın həmrəyliyi, Ordunun şücaəti ilə qazanılan suverenliyimiz

# Əbədi olsun!

Bax səh. 2

## Türk ailəsinin güclənməsi üçün...

### İlham Əliyev: Beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var

Bax səh. 3

## Azərbaycanın regional inkişaf nümunəsi

Hazırda dünyanın əksər ölkələrində izlənilən tipik proseslərdən biri regionlarla paytaxtlar və digər iri şəhərlərin inkişafında kəskin fərqlərin yaranmasıdır. Adətən diqqət meqapolislərin sürətli inkişafına yönəldilir, regionlar isə getdikcə daha çox dərəcədə geridə qalır.

Müstəqil Azərbaycanın nümunəsində isə biz fərqli yanaşma görürük. Belə ki, ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bütün respublika üzrə tarazlı inkişafın təmin edilməsi strategiyası müəyyənləşdirilib və ötən dövrdə bu istiqamətdə bölgələrdə çoxsaylı layihələr reallaşdırılıb. Beləliklə, bölgələrimiz də ölkənin ümumi sosial-iqtisadi inkişaf proseslərinə cəlb olunub. Əlamətdar haldır ki, Prezident İlham Əliyev dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edən regional inkişafı şəxsi nəzarətində saxlayır. Dövlətimizin başçısının birinci xanım Mehriban Əliyeva ilə birlikdə vaxtaşırı regionlara səfərlər edərək görülən işlərlə yerindəcə tanış olması, layihələrin icra vəziyyəti ilə maraqlanması və dəyərli tövsiyələrini verməsi bunun əyani təsdiqidir. Son olaraq Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu günlərdə Şamaxıda səfərdə olublar. Səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım Şamaxıda "Pirqulu Park" hotelinin...

Bax səh. 4

## "Yaşıl enerji"də yeni dövr



Bax səh. 4

## "Real Ermənistan" konsepsiyası ciddi böhran keçirir

### Erməni cəmiyyətinin diplomatların Qarabağ və Şərqi Zəngəzura səfərinə reaksiyası bunu təsdiqləyir

Bax səh. 5

## 3,6 milyard dollardan çox...

Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyaların həcmində artım dinamikası müşahidə edilməkdədir. 2026-cı ilin birinci yarısında ölkə iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 3 milyard 666 milyon 873 min dollara bərabər olub. Mərkəzi Bankın (MB) Statistika departamentinin direktoru Samir Nəsirov bildirib ki, sərmayə yatıran ölkələrin ilk beşliyində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Türkiyə, Kipr, Rusiya, İran İslam Respublikası yer alıb. Qeyd edilən dövrdə Azərbaycanın özü də potensial sərmayədar ölkə kimi maliyyə imkanlarını artırıb və xarici iqtisadiyyata yönəldilmiş birbaşa investisiyaların həcmi 5 milyard 360 min dollar təşkil edib. Azərbaycanın ən çox kapital yönəltdiyi ölkələrin sırasında İtaliya, Türkiyə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Ərəb Əmirlikləri və Gürcüstan qərarlaşıb.

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşlarının artmasında ən mühüm amillərdən biri ölkədə təmin edilmiş sağlam və münbit investisiya mühitidir. Bu istiqamətdə respublikamızda həyata keçirilən hüquqi və institusional islahatlar mühüm rol oynamaqdadır. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra...

Bax səh. 5

## Avropanın yeni seçimi - ifrat sağçılar



Bax səh. 7




## 2023-cü ildən bəri ilk dəfə...

Bax səh. 7

# Liderin qətiyyəti, xalqın həmrəyliyi, Ordunun şücaəti ilə qazanılan suverenliyimiz

**Əbədi olsun!**

Artıq altı ildir ki, Azərbaycan xalqı qürurlu tarix yaşayır. Bu şərəfli tarix Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqın öz dövləti ilə sıx həmrəyliyi, Ordunun gücü, igid əsgər və zabitlərimizin misilsiz şücaəti ilə yazılıb. Söhbət 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ildə 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan zəfərlərdən gedir. Bu qələbələr son 200 illik tariximizin ən şanlı səhifələridir və bundan sonra hər zaman xalqımızın sonsuz qürur mənbəyi olaraq qalacaq. Əlamətdar haldır ki, son illərdə dövlətimizin başçısının imzaladığı ayrı-ayrı sənədlər məhz tarixi zəfərlərimizlə bağlıdır. O cümlədən Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə hər il sentyabrın 20-də qeyd olunan Dövlət Suverenliyi Günü təsis edilib.

Dövlətimizin başçısının imzaladığı bu sərəncam Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir. 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi müəyyənləşdirilməsi təsadüfi deyil. Məhz 2023-cü il sentyabrın 20-də lokal xarakterli antiterror əməliyyatının nəticəsi olaraq ərazilərimizdə ən çirkin mahiyyət daşıyan erməni separatizminə son qoyuldu və beləliklə də, suverenliyimiz tam təmin edildi. Hazırda suverenliyimiz real səciyyə daşıyır. Bu yeni tarixin təqvimdə rəsmi qaydada yer alması zəfərlərimizin, XXI əsrdə ölkənin müstəqilliyinin möhkəmləndirilməsinin böyük önəm daşıdığını bir daha vurğulayır.



## Suverenliyə gedən yolda mühüm mərhələ - ölkənin ərazi bütövlüyünün hərbi-siyasi yolla təmin edilməsi

Məlumdur ki, hazırda dünyada beynəlxalq hüquq işləmir, ədalətsizlik hökm sürür, güc mərkəzləri milli dövlətlərə münasibətdə ikili standartlar nümayiş etdirirlər. Belə vəziyyətdə çıxış yolu milli dövlətlərin iradəsində, gücündə və qətiyyətindədir. Müstəqil Azərbaycan bu sahədə də dünyaya nümunə təqdim edib - işğalla heç vaxt barışmamaq, cəmiyyətin, xalqın milli dövləti ilə sıx birləşməsi, həmrəy olmaq nümunəsi, ən kritik məqamlarda Liderin qətiyyət göstərməsi və doğru seçim etmək nümunəsi.

Tale Azərbaycan xalqına ötən əsrin doxsanıncı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə müstəqil dövlətini qurmaq şansı verdi. Lakin iş elə gətirdi ki, müstəqilliyimizin ilk illərində biz qonşu Ermənistanın təcavüzünə məruz qaldıq. Belə ki, bu ölkə xarici havadarlarının güclü dəstəyi ilə ərazilərimizin təxminən 20 faizini öz nəzarəti altına keçirməyə müvəffəq oldu. O dövrdə Azərbaycanın nizami ordusu yox idi, daxili həmrəylik pozulmuşdu, özlərini “lider” adlandıran şəxslər arasında qarşıdurmalar yaşanırdı, həmçinin iqtisadiyyatımız dağılmışdı, maliyyə imkanları olduqca məhdud idi. Xain düşmən də bundan suiistifadə etməklə özünün işğalçılıq siyasətini həyata keçirdi. Bu işğal nəticəsində təxminən bir milyon insan doğma ev-eşiyini tərk edərək qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü. Bu, əsl humanitar fəlakət idi.

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmayıb. Üç onillik ərzində ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsi Azərbaycanın siyasi gündəliyinin mərkəzində dayanıb. Azərbaycan dövləti və cəmiyyəti artıq tarixdə qalan Dağlıq Qarabağ münaqişəsində yekdil mövqe və güclü həmrəylik ortaya qoyub. Əsas məqam ondan ibarətdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyev ölkəmizin gücünü ümummilli ideya ətrafında cəmləşdirməyi və səfərbər etməyi bacarıb. Otuz il ərzində Azərbaycan danışıqlar prosesində konstruktivlik göstərməklə yanaşı, həm də istənilən vəzifəni yerinə yetirməyə qadir olan güclü Ordu formalaşdırıb. Bu Ordu İkinci Qarabağ müharibəsinədək olan dövrdə nəyə qadir olduğunu Aprel döyüşlərində, Çünnüt əməliyyatında göstərmişdi.

Ölkəmizin ərazi bütövlüyünü təmin etmək məqamı 2020-ci ilin sentyabr ayında yetişdi. Həm düşmənə sarsıdıcı zərbələr endirməyə qadir olan Ordumuz var idi, həm də cəmiyyətin ovqatı torpaqların işğaldan birdəfəlik azad olunmasına köklənmişdi. Ölkədə məhz İlham Əliyevin rəhbərliyi dönəmində Vətənə, xalqa bağlı gənclik formalaşmışdı. Prezident İlham Əliyev məhz bu kimi amilləri nəzərə almaqla tələsmədən və gecikmədən ən doğru məqamı seçdi - 2020-ci il sentyabrın 27-də düşmənin keçmiş təmas xətti boyunca törətdiyi növbəti təxribatlara genişmiqyaslı əks-hücum əməliyyatları ilə cavab verilməsi barədə göstərişlərini verdi. Ali Baş Komandanın bütün tapşırıqlarını yerinə yetirən Ordumuz müharibə dövründə daim irəlilədi və cəmi 44 gün ərzində düşməni diz çökməyə məcbur etdi. Döyüşlərdə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın bir güllə atılmadan Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı və Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu ki, bu da suverenliyin bərpasına gedən yolda ən mühüm mərhələdir.

## Cəmi 23 saat 43 dəqiqəyə tamamlanan antiterror əməliyyatı - ölkə ərazisində separatizmə son qoyuldu

Güman etmək olardı ki, işğalçı Ermənistan 44 günlük müharibədəki acınacaqlı məğlubiyyətdən dərs alacaq və üçtərəfli bəyanatla üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirəcək. Ancaq belə olmadı. Müharibə başa çatsa da, məğlub Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə tələsmədi və manipulyasiyalara əl atdı. Bəhs olunan sənəddə Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri Azərbaycan ərazilərindəki hərbi hissələrini geri çəkməklə bağlı idi. 44 günlük müharibədən sonrakı üç il ərzində bu öhdəlik yerinə yetirilmədi. Ermənistan ordusunun təxminən 15 minlik kontingenti Azərbaycan ərazilərində qalaraq separatçılıq əməllərini davam etirir, tez-tez təxribatlara əl atırdı. İkinci Qarabağ müharibəsindən sonra ölkəmiz narahatlığını nəzərə çatdıraraq dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına, digər tərəflərə müraciət edib və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalmasının yolverilməz olduğunu əsaslandırıb. Rəsmi Bakı buna son qoyulmasını tələb edirdi.

Azərbaycanın haqlı tələbləri eşidilmədi. Müharibədən sonra respublikamız Ermənistana davamlı sülh üçün çağırışlar etsə də, qarşı tərəf hər dəfə danışıqlardan boyun qaçırır, bununla da kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. 2023-cü ilin 19 sentyabr tarixində Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror aktları törətdilər. Belə ki, erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli - Füzuli - Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində mülki şəxslər, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları şəhid oldular və yaralandılar. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə, Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı. Həmin gün Azərbaycanın Qarabağ bölgəsində qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələrinin növbəti terror aktı nəticəsində Ağdam və Şuşa şəhərlərində müvafiq olaraq iki mülki əməkdaş həlak oldu. Qeyri-qanuni erməni silahlı birləşmələrinin döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edildi. Bütün bu təxribatların qarşısının alınması, üçtərəfli bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror əməliyyatına başlanıldı. Ərazilərimizdə separatizmə son qoyan lokal xarakterli antiterror əməliyyatı uğurla baş tutdu. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Bununla da ərazilərimizdə separatizmə birdəfəlik son qoyuldu. “İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir”, - deyə dövlətimizin başçısı şanlı zəfərlərimizi dəyərləndirib.

## 20 sentyabrdan sonrakı bir ildə...

Uğurlu lokal xarakterli antiterror əməliyyatından sonrakı bir ildə də tarixi analara şahidddlik etdik. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Onun üçün əlamətdar olan bir gündə - dövlət başçısı seçilməsinin 20 ilinin tamamında antiterror tədbirlərində separatçılardan təmizlənən ərazilərimizdə, o cümlədən Xocalıda və Xankəndidə Azərbaycan Bayrağını ucaltmaqla bizlərə sonsuz qürur hissi yaşatdı. Artıq suverenliyimiz tam təmin olunmuşdu və ölkənin bütün ərazisində üçrəngli bayrağımız əzəmətlə dalğalanırdı.

2024-cü ilin əvvəlindən isə suveren Azərbaycanın həyatında iki mühüm hadisə baş verib. Ölkənin bütün ərazisində fevral ayında Prezident, sentyabr ayında isə parlament seçkiləri baş tutub. Beləliklə, müstəqillik tariximizdə Prezident və parlament seçkiləri ölkənin bütün ərazilərində keçirilməklə çox mühüm bir ilkə imza atıldı.

## Təqvimdə yeni bayramlar - 4 şəhərin 1 günü

Doğma, əziz şəhər və kəndlərimizin işğaldan azad olunması bizim üçün bayramdır və Prezident İlham Əliyev ölkəmizdə şəhər günlərinin təsis edilməsi ilə bağlı imzaladığı müvafiq sərəncamlarla bunu rəsmiləşdirib. Xatırladaq ki, dövlətimizin başçısı 2023-cü il 31 iyul tarixində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” sərəncam imzalayıb. Ölkə rəhbərinin 2024-cü il sentyabrın 18-də imzaladığı digər sərəncamla isə həmin sənədə aşağıdakı məzmunlu dəyişiklik edilib: “20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü”. Beləliklə də, respublikamızda işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin sayı 9-a çatıb.

İşğal illərində məqsədli şəkildə viran qoyulan yaşayış məntəqələrimizin siyahısı çox uzundur. Bu siyahıda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan eyni zamanda Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, talayaraq, onları əsl urbisid (şəhərlərə qarşı genosid) və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu “Qafqazın Xirosiması” adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunanda Azərbaycan Ordusunun əsgər və zabitləri orada bir dənə də salamat bina tapa bilmirdilər ki, onun üzərində bayrağımızı ucaltsınlar. Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. Beləliklə, Prezident İlham Əliyevin imzaladığı iki sərəncama əsasən hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunur. Siyahını təqdim edirik:

26 avqust - Laçın şəhəri günü,
4 oktyabr - Cəbrayıl şəhəri günü,
17 oktyabr - Füzuli şəhəri günü,
20 oktyabr - Zəngilan şəhəri günü,
25 oktyabr - Qubadlı şəhəri günü,
8 noyabr - Şuşa şəhəri günü,
20 noyabr - Ağdam şəhəri günü,
25 noyabr - Kəlbəcər şəhəri günü.
20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü.

## Kədərli tarix arxada qalıb - doğma şəhərlərin yeni ritmləri

Prezident İlham Əliyevin sərəncamı ilə hər il sentyabrın 20-də şəhər günləri qeyd olunan Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında işğalçılardan təmizlənməsi ədalətin, həm də tarixin bərpasıdır. Xocalı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vəhşiliyinə tuş gələn və təsəvvürəgəlməz zülm, sitəm yaşayan bir şəhərdir. Erməni soyqırımlarının 1988-1993-cü illərdəki son mərhələsi xüsusi amansızlığı ilə səciyyələnir. Bu mərhələdə Xocalı şəhəri erməni vandalizminin növbəti ünvanı oldu. Qanlı gecədə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər bütün şəhəri yerlə-yeksan etdilər. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb.

Separatçıların qondarma qurumun baş şəhəri elan etdikləri Xankəndiyə münasibətdə də erməni məkrinə yol verilib. Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Xanların fəaliyyətinə uyğun şərait yaradılması üçün istirahət məskəni xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində planlaşdırılır. Bu zaman istirahət məskəninin xanlığın digər vacib şəhər və kəndlərinə, o cümlədən Ağdama, Xocalıya, Malibəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Bəhs olunan məntəqələrin hamısında istisnasız olaraq azərbaycanlılar yaşayırdılar. İlk vaxtlarda yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında məhz bu adla tanınıb: Xanın kəndi. Az vaxt ötəndən sonra isə “Xanın kəndi” “Xankəndi” adını alıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə hədiyyə olunub. “Xankəndi” toponimi 1923-cü ildə keçmiş ittifaqın mərkəzi hakimiyyətinin diqtəsi ilə dəyişdirilib və şəhərə saxta “Stepanakert” adı verilib. Separatçılar da məhz bu toponimdən istifadə ediblər.

İşğal dövründə Xocavənd və Ağdərə şəhərləri də oxşar talelərlə üzləşiblər. Ancaq artıq kədərli günlər keçmişdir. Üç il bundan əvvəl baş tutan uğurlu lokal xarakterli antiterror əməliyyatından sonra digər azad olunan yaşayış məntəqələri kimi, Xocavənd və Ağdərə də artıq doğma əllərdədir.

Lokal xarakterli antiterror əməliyyatından sonra bütün azad ərazilərdə olduğu kimi, sözügedən şəhərlərdə də qızğın bərpa-quruculuq işləri görülür, bu yerlərə həyat yenidən qayıdır. Artıq yurd yerlərimizə ilk köçlər də baş tutub. Bu gün bu yerlərdə torpaq doğma insanların ürəyinin hərarəti ilə isinir. Artıq bir vaxtlar erməni separatizminin beşiyi sayılan Xankəndidə 30 minədək insan yaşayır, təhsil alır və yaxud quruculuq işlərində çalışır. Bütün bunlar azad ərazilərimizin qəlbimizi fərəhləndirən ritmləridir...

*Mübariz ABDULLAYEV*

# Təhlükəsizlik, həmrəylik və vahid mövqe...

## Türk dövlətlərinin koordinasiyalı fəaliyyəti regional sabitliyin zəruri şərtinə çevrilir

### İlham Əliyev: Sabitlik və təhlükəsizlik olmadan heç bir ölkənin inkişafı mümkün deyil



Dünya son illərdə geosiyasi ziddiyyətlərin daha da kəskinləşdiyi, yeni hərbi-siyasi bloklaşmaların, hətta qütbləşmələrin formalaşdığı və beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir mərhələdən keçir. Qlobal güclər arasında qarşıdurmalar, müharibələr, terrorizm, hibrid təhdidlər və kiber hücumlar beynəlxalq təhlükəsizliyi zəiflədən amillər kimi ön plana çıxır. Belə bir mühitdə təhlükəsizlik sisteminin qorunub saxlanılması, yeni çağırışlara adekvat mexanizmlərin formalaşdırılması və qlobal həmrəyliyin təmin olunması bəşəriyyətin qarşısında duran əsas vəzifələrdən biridir.

Sirr deyil ki, ənənəvi qlobal idarəetmənin mərkəzlərində müəyyən geriləmələr hiss olunur - başqa sözlə, beynəlxalq təşkilatlar arasında güc balansı dəyişir, yeni regional birliklər dünya siyasətinə təsir imkanlarını daha da artırır. Bu yeni siyasi mənzərədə Türk Dövlətləri Təşkilatı (TDT) öz tarixi, mədəni və geosiyasi potensialına söykənərək müasir dünyanın çoxqütblü modelində önəmli regional təhlükəsizlik aktoru kimi fəaliyyətini genişləndirir. Qeyd edək ki, TDT-nin meydana çıxması və son illərdə qazandığı dinamik inkişaf onu yalnız türkdilli xalqların əməkdaşlıq platforması kimi deyil, eyni zamanda qlobal münasibətlər sisteminin yeni dayaqlarından biri kimi təqdim edir. Təşkilat üzv dövlətlər arasında siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə qarşılıqlı inteqrasiyanı möhkəmləndirməklə yanaşı, Avrasiya məkanında sabitlik, təhlükəsizlik və dayanıqlı inkişafın təminatçısı rolunu da üzərinə götürür. Prezident İlham Əliyev sentyabrın 17-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibini və ölkələrin milli təhlükəsizlik şuraları rəhbərlərini qəbul edərkən çıxışında bildirib ki, TDT-nin uğurlu inkişafının digər mühüm amili isə ondan ibarətdir ki, bu gün, necə deyərlər, xaotik dünyada ölkələrimizin ərazilərində sabitlik, sülh və təhlükəsizlik hökm sürür: "Bugünkü siyasi və xarici siyasi reallıqlarda bu, inkişafın mühüm amilidir. Çünki məlumdur ki, sabitlik və təhlükəsizlik olmadan heç bir ölkənin inkişafı mümkün deyil. Bu və ya digər ölkədə sabit vəziyyət, siyasi və iqtisadi sabitlik yoxdursa, heç bir ölkəyə nə investisiyalar, nə texnologiyalar, nə də innovasiyalar gələcək. Yəni bu da bu gün ölkələrimizi yerləşdiyimiz regionlardakı digər ölkələrdən fərqləndirən mühüm amildir".

### Regional təhlükəsizliklə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir

Azərbaycan isə bu proseslərdə özünəməxsus mövqeyi, siyasəti ilə seçilir. Ölkəmiz təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Türk dünyasında, hətta Avrasiya məkanında sülhün və sabitliyin təmin olunmasına töhfə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diplomatiya, beynəlxalq tərəfdaşlıq platformaları və təhlükəsizlik təşəbbüsləri Azərbaycanın bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Azərbaycanın həyata keçirdiyi siyasət Türk ailəsi daxilində təhlükəsizlik indeksinin artırılmasına yönəlməsi ölkəmizin bu platformada artan nüfuzunu və strateji əhəmiyyətini təsdiqləyir. Təhlükəsizlik məsələlərinin effektiv həllində vahid yanaşma, dövlətlərin həmrəyliyi xüsusi rol oynayır. Məhz bu baxımdan, Bakıda TDT-nin təhlükəsizlik şuraları rəhbərlərinin toplanması bir çox mətləblərdən xəbər verir. Bu tədbir müasir dövrün tələblərinə cavab verən mühüm platforma kimi çıxış edir, həmçinin qlobal təhdidlərə qarşı mübarizədə koordinasiyalı fəaliyyətə şərait yaradır. Bakı platforması həm regional, həm də beynəlxalq miqyasda sülhün qorunması, risklərin azaldılması və gələcək təhlükəsizlik modelinin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir.

Belə halda isə, iqtisadi inteqrasiya ilə yanaşı, müdafiə immunitetinin gücləndirilməsi də təşkilatın əsas hədəflərindən biri kimi ortaya çıxır. Bu günün rakursunda TDT üzvü olan ölkələrə qarşı hər hansı real təhlükələr hiss edilməsə belə, hər bir ölkə ayıq-sayıqlığını itirməməlidir. Bölgəmiz hazırda münaqişələrin müşahidə olunduğu bir regiondur. O baxımdan, hər an təhlükəsizliyin təmini, sabitliyin bərqərar olunması üçün səfərbər olmaq lazımdır. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, ölkələrimizin üstünlüyü ondan ibarətdir ki, geniş coğrafiyada ictimai asayişlə, müxtəlif terror təhdidləri ilə bağlı vəziyyət nəzarət altındadır. Lakin bu o demək deyil ki, biz arxayınlaşmalıyıq: "Ətrafımızda müharibələr gedir və bu müharibələrin nə sonu, nə də qurtaracağı görünür. Müharibələrin coğrafiyası genişlənir. Döyüşən tərəflər arasında qarşılıqlı düşmənçilik açıq xarakter alır. Bütün bunlar ölkələrimizin perimetri boyunca mövcud olan münaqişələrin coğrafiyasının genişlənməsinə səbəb ola bilər və prinsipcə, səbəb də olur. Hazırkı vəziyyətdə də, Azərbaycan haqqında danışsaq, həm şimalda, həm də cənubda qonşularımız müharibə aparan ölkələrdir. Bu kontekstdə də, əlbəttə ki, regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir".

### Hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə

Hazırkı mürəkkəb geosiyasi şəraitdə təhlükəsizlik məsələsi Türk Dövlətləri Təşkilatının gündəliyində daha mühüm yer tutmağa başlayır. Xüsusilə TDT məkanına yaxın regionlarda davam edən münaqişələr, hərbi-siyasi gərginliklər və yeni təhlükəsizlik riskləri üzv dövlətlərin koordinasiyalı fəaliyyətini zərurətə çevirir. Təsadüfi deyil ki, təşkilat çərçivəsində təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr artıq Milli Təhlükəsizlik Şuralarının katibləri səviyyəsində keçirilir. Bakıda TDT Təhlükəsizlik Şuraları katiblərinin 5-ci görüşünün keçirilməsi bu istiqamətin aktuallığını bir daha göstərir.

Burada söhbət yalnız mümkün hərbi təhdidlərdən getmir. Terrorizm, ekstremizm, kibertəhlükələr, transmilli cinayətkarlıq, qeyri-qanuni silah və narkotik dövriyyəsi, enerji və nəqliyyat infrastrukturlarının təhlükəsizliyi də ümumi yanaşma tələb edən məsələlər sırasındadır. TDT-nin mövcud sənədlərində təhlükəsizlik qurumları arasında məlumat mübadiləsinin genişləndirilməsi, birgə yanaşmaların hazırlanması və fövqəladə hallara qarşı qarşılıqlı yardım mexanizmlərinin gücləndirilməsi nəzərdə tutulur.

Bu baxımdan TDT qarşısında mühüm vəzifələrdən biri siyasi məsləhətləşmələri praktiki əməkdaşlıq mexanizmlərinə çevirməkdir. 2026-cı ilin martında təşkilatın xarici işlər nazirləri regiondakı silahlı münaqişələrlə bağlı birgə mövqe nümayiş etdirərək üzv dövlətlərin təhlükəsizliyinə təhdidlərin bütün təşkilat üçün narahatlıq doğurduğunu vurğulamışdılar. İndiki mərhələdə artıq TDT yalnız iqtisadi və nəqliyyat əlaqələri ilə deyil, üzv ölkələrin təhlükəsizlik məsələlərində həmrəyliyi ilə də nümunə nümayiş etdirməlidir. Prezident İlham Əliyev çıxışında vurğulayıb ki, dövlət təhlükəsizliyinə cavabdeh qurumların fəaliyyətinin əlaqələndirilməsi, məlumat mübadiləsi, operativ məlumat mübadiləsi, birgə fəaliyyət və mövcud təhdidlərə qarşı mübarizədə, ən başlıcası isə mümkün təhdidlərin qarşısının alınmasında və profilaktikasında koordinasiyanın gücləndirilməsi, hesab edirəm ki, hamımız üçün həyati əhəmiyyət daşıyır: "Bugünkü təhdidlərin təkcə fiziki deyil, həm də ideoloji xarakter daşımasına gəldikdə isə hesab edirəm ki, bu barədə danışmağa ehtiyac yoxdur, hamımız bunu çox yaxşı bilirik. Ölkələrimizin ardıcıl inkişafını və konstitusiya quruluşunun qorunmasını təmin etmək üçün ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır. O cümlədən adətən ölkələrimizin hüdudlarından çox uzaqda yerləşən, lakin nədənsə məlum mərkəzlərdən maliyyələşən müxtəlif media strukturları vasitəsilə həyata keçirilən təxribatlara qarşı. Bu maliyyələşdirmə ölkələrimizin dövlət quruluşunun sarsıdılmasına, ictimai həmrəyliyin pozulmasına, yad narrativlərin və dəyərlərin aşılanmasına yönəlib. Biz buna qarşı Azərbaycanda çox fəal mübarizə aparırıq və deməliyəm ki, böyük uğurlar əldə etmişik".

### Gənclərin həmrəyliyi TDT inteqrasiyasının mühüm dayağıdır

Qloballaşmanın sürətləndiyi bir dövrdə milli dövlətlərin qarşısında dayanan çağırışlar yalnız iqtisadi və siyasi xarakter daşımır. İnformasiya məkanı, sosial şəbəkələr və rəqəmsal platformalar cəmiyyətlərə təsir imkanlarını da genişləndirib. Müxtəlif xarici mərkəzlərin ayrı-ayrı ölkələrin daxili proseslərinə təsir göstərməyə, ictimai rəyi istiqamətləndirməyə və xüsusilə gənclər arasında müəyyən baxışları yaymağa çalışması bu reallığın tərkib hissəsidir. Belə hallarda əsas məsələ gənclərin dünyada baş verən prosesləri düzgün qiymətləndirmək, milli maraqları dərk etmək və informasiya manipulyasiyalarını ayırd etmək imkanlarının gücləndirilməsidir.

Bu baxımdan Türk Dövlətləri Təşkilatı çərçivəsində gənclərlə iş xüsusi əhəmiyyət daşıyır. Gənc nəsil yalnız gələcəyin deyil, həm də bu günün ictimai-siyasi və sosial həyatının fəal iştirakçısıdır. Ona görə də Türk dövlətlərinin gəncləri arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı səfərlərin, forumların, konfransların, təhsil və mədəniyyət proqramlarının artırılması ortaq məkan haqqında təsəvvürlərin möhkəmlənməsinə xidmət edə bilər.

Gəncləri milli dövlətçiliyin mahiyyəti, müstəqilliyin dəyəri, informasiya təhlükəsizliyi və müasir çağırışlar barədə daha məlumatlı etmək vacibdir. Bir-birini daha yaxından tanıyan, ortaq tarix və mədəni irs haqqında biliklərini genişləndirən gənclər arasında qarşılıqlı etimad da güclənir. TDT bu istiqamətdə vahid gənclər platformalarını daha da inkişaf etdirə bilər. Müxtəlif ölkələrdən olan gənclərin mütəmadi görüşləri, birgə layihələri və akademik-mədəni mübadilələri təşkilat daxilində sosial inteqrasiyanı dərinləşdirər. Beləliklə, gənclərin həmrəyliyi TDT-nin yalnız bugünkü əməkdaşlığını deyil, gələcək nəsillər üçün daha möhkəm və dayanıqlı inteqrasiya əsaslarını da formalaşdıra bilər. Prezident İlham Əliyev çıxışında deyib ki, müəyyən beynəlxalq mərkəzlərdən ölkələrimizin dövlət maraqlarının sarsıdılmasına yönəlmiş fəaliyyət prinsipləri dəyişməz olaraq qalır. Həm metodlar, həm də məqsədlərinə nail olmaq cəhdləri kifayət qədər şablon xarakter daşıyır, deyərdim ki, primitivdir: "Bir sözlə, bədxahlarımızda, deyərdim ki, yaradıcılıq çatışmır. Əlbəttə ki, onlar əsas səylərini hələ formalaşmamış, formalaşma mərhələsində olan və manipulyasiya etməyin daha asan olduğu gənc nəslə yönəldirlər. Məhz buna görə deyirəm, bilirəm ki, ölkələrimizin hər birində fəal gənclər siyasəti həyata keçirilir. Lakin hesab edirəm ki, TDT çərçivəsində məhz gənclər təşkilatlarımızın qarşılıqlı fəaliyyətinə daha çox diqqət yetirməliyik, müntəzəm tədbirlər, forumlar, konfranslar keçirməliyik ki, gənc vətəndaşlarımız bir-biri ilə ünsiyyət qursunlar. Onlar qohum xalqlara bizim nəslin münasibət göstərdiyi kimi münasibət göstərsinlər. Bunu, əlbəttə, öz nümunəmiz, uğurlu fəaliyyətimiz, təşkilatımızın möhkəmləndirilməsi ilə yanaşı, düzgün ideoloji iş vasitəsilə onlara ötürməliyik".

***Pərviz SADAYOĞLU***

# Türk ailəsinin güclənməsi üçün...



### İlham Əliyev: Beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var

Müasir dünyanın mürəkkəb geosiyasi mənzərəsi dövlətlər və xalqlar qarşısında yeni əməkdaşlıq modellərinin formalaşdırılmasını zərurətə çevirir. Qlobal proseslərin sürətlə dəyişdiyi, iqtisadi və siyasi rəqabətin dərinləşdiyi bir şəraitdə ortaq tarixə, mədəniyyətə və strateji maraqlara malik ölkələrin vahid məqsədlər ətrafında birləşməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan Türk Dövlətləri Təşkilatı (TDT) yalnız dövlətlərarası əməkdaşlıq platforması deyil, eyni zamanda Türk dünyasının qarşılıqlı əlaqələrinin daha sistemli və institusional əsasda inkişafına xidmət edən mühüm geosiyasi format kimi çıxış edir.

Azərbaycanın Bakı platforması üzərindən verdiyi töhfələr isə bu prosesin mühüm istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev sentyabrın 17-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibini və ölkələrin milli təhlükəsizlik şuraları rəhbərlərini qəbul edərkən çıxışında bildirib ki, cəmi bir neçə gün əvvəl ölkələrimizi təmsil edən dini liderlər, ardından isə təşkilatın təhlükəsizlik şuralarının katibləri şuranın 5-ci iclasını keçirmək üçün Bakıda toplaşıblar. Bütün bunlar təşkilatımız çərçivəsində fəal qarşılıqlı əlaqənin göstəricisidir: "Həmçinin onu göstərir ki, Türk Dövlətləri Təşkilatı çox böyük beynəlxalq nüfuza malik olan bir təşkilatdır. Çünki müxtəlif formatlarda müzakirə olunan məsələlər beynəlxalq gündəliyi, beynəlxalq təhlükəsizliyi, multikulturalizm, ticarət, nəqliyyat, ümumilikdə humanitar əməkdaşlıqla bağlı məsələləri əhatə edir. Ona görə də əminliklə demək olar ki, təxminən iyirmiillik fəaliyyətindən, təşkilatın yaradıldığı 2009-cu ildə Naxçıvanda keçirilmiş tarixi Zirvə görüşündən sonra Türk Dövlətləri Təşkilatı mühüm məsələlərin həlli və üzv ölkələr arasında qarşılıqlı əlaqələrin inkişafı, həmçinin təşkilatın beynəlxalq arenadakı mövqeyinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsi üçün öz potensialından maksimum istifadə edir. Biz hamımız bunda maraqlıyıq. Təşkilata üzv ölkələrin rəhbərlərinin ümumi mövqeyi məhz ondan ibarətdir ki, beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var".

**Mərkəzi Asiyadan Türkiyəyə qədər...**

Bu prosesdə Azərbaycanın mövqeyi və təşəbbüsləri xüsusi diqqət çəkir. Azərbaycan TDT-nin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində fəal iştirak etməklə yanaşı, təşkilat daxilində siyasi dialoqun, iqtisadi əməkdaşlığın, nəqliyyat-kommunikasiya əlaqələrinin və humanitar münasibətlərin genişləndirilməsinə mühüm töhfələr verir. Bakı son illərdə türk dövlətləri arasında əməkdaşlığın yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, daha geniş regional və qlobal gündəlik kontekstində inkişaf etdirilməsinin tərəfdarı kimi çıxış edir. Azərbaycanın təşəbbüsləri TDT-nin potensialının daha geniş miqyasda reallaşdırılması baxımından mühüm platforma yaradır.

Bakının Türk dünyasının müzakirə və əməkdaşlıq məkanlarından birinə çevrilməsi də təsadüfi deyil. Vurğulandığı kimi, son günlər TDT çərçivəsində iki mühüm konfransın məhz Azərbaycanda keçirilməsi təşkilata üzv və müşahidəçi ölkələr arasında fikir mübadiləsinin dərinləşdirilməsi baxımından diqqətəlayiq hadisədir. Bu tədbirlər bir tərəfdən gündəlikdə dayanan aktual məsələlərin müzakirəsinə imkan yaradırsa, digər tərəfdən Bakının Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və intellektual əlaqələrin inkişafındakı rolunu nümayiş etdirir. Beləliklə, TDT-nin qarşısında dayanan əsas məsələ ortaq tarixi və mənəvi bağları müasir dövrün siyasi və iqtisadi reallıqları ilə uzlaşdıraraq daha dayanıqlı əməkdaşlıq mexanizmləri yaratmaqdır. Prezident İlham Əliyev bildirib ki, biz həm dünya iqtisadiyyatını enerji resursları ilə təchiz edən ölkəyik, həm də Azərbaycan Mərkəzi Asiya ölkələrindən Xəzər vasitəsilə enerji resurslarının daha sonra beynəlxalq bazarlara tranzitini həyata keçirir: "Beləliklə, Avropa ilə Asiyanın qovşağında yerləşən və həm TDT-yə üzv Mərkəzi Asiya ölkələri, həm də Türkiyə ilə fəal qarşılıqlı əlaqədə olan Azərbaycanın coğrafi mövqeyi, əlbəttə ki, bütün ölkələrimiz üçün maksimum fayda ilə nəqliyyat və enerji təhlükəsizliyi layihələrinin həyata keçirilməsində oynadığımız rolu şərtləndirir".

**Azərbaycan TDT-yə üzv ölkələrlə ikitərəfli formatda fəal əməkdaşlıq edir**

Rəsmi Bakının apardığı çoxvektorlu siyasət, enerji və nəqliyyat diplomatiyası, regional platformaların qurucusu kimi oynadığı rol geniş bir coğrafiyada yeni situasiya formalaşdırıb. Bu gün Bakı müstəqil strateji xəttə sahib dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya - Türkiyə inteqrasiyasının mərkəzi sütunudur - başqa sözlə, Xəzərin iki sahili arasında zaman-zaman mövcud olan siyasi əlaqələr bu gün tamamilə yeni inkişaf məcrasına keçib və qarşılıqlı fəaliyyətin səviyyəsi tarixi maksimum həddə çatıb. Ölkəmizin həyata keçirdiyi müstəqil və praqmatik xarici siyasət Türk dövlətləri arasında qarşılıqlı etimadın möhkəmlənməsinə, strateji tərəfdaşlığın dərinləşməsinə və ortaq maraqların beynəlxalq platformalarda daha effektiv müdafiəsinə xidmət göstərir. Xəzərdən Aralıq dənizinə, Mərkəzi Asiyadan Avropaya qədər uzanan nəqliyyat və enerji dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı rol ölkəmizi Türk dünyasının əsas geostrateji körpülərindən birinə çevirib. Bu baxımdan Bakı yalnız coğrafi baxımdan deyil, həm də siyasi və iqtisadi baxımdan Türk dövlətlərini birləşdirən mühüm mərkəz funksiyasını yerinə yetirir. Bakı təşkilatın funksionallığını artırmaq üzərində real iş aparır. Qarşılıqlı intensiv səfərlər isə burada əsaslı rol oynayır. TDT üzvü olan dövlətlərlə bağlanan müttəfiqlik müqavilələri bu bağı, bu bağlılığı daha da möhkəmləndirir. Dövlət başçımız çıxışında bildirib ki, Azərbaycan TDT-yə üzv ölkələrlə ikitərəfli formatda fəal əməkdaşlıq edir: "Mənim təşkilata üzv ölkələrə çoxsaylı səfərlərim və TDT-yə üzv dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun parlaq göstəricisidir. Eyni zamanda, Azərbaycan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla müttəfiqlik haqqında müqavilələr və bəyannamələr imzalayıb. Yəni bu, ikitərəfli qarşılıqlı əlaqələrin ən yüksək səviyyəsidir və bu müqavilələr uğurla həyata keçirilir".

**Ortaq kimlikdən strateji həmrəyliyə**

Türk Dövlətləri Təşkilatının formalaşdırdığı əməkdaşlıq modelini fərqləndirən mühüm cəhətlərdən biri də üzv ölkələr arasında mövcud olan tarixi-mədəni yaxınlıqdır. Bu yaxınlıq yalnız keçmişlə bağlı ortaq yaddaşdan ibarət deyil. Dil, adət-ənənə, mədəni irs və qarşılıqlı mənəvi bağlar bu gün dövlətlərarası münasibətlərin daha geniş müstəvidə inkişaf etdirilməsi üçün əlverişli zəmin yaradır. Məhz bu amillər TDT çərçivəsində siyasi və iqtisadi əməkdaşlığın cəmiyyətlər tərəfindən daha asan qəbul olunmasına da imkan verir. Əslində, ortaq kimlik anlayışı təşkilatın fəaliyyətində emosional və simvolik məna ilə məhdudlaşmır. O, praktiki əməkdaşlıq üçün əlavə imkanlar yaradan mühüm resursdur. Dövlətlər arasında etimadın möhkəmləndirilməsi, qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və uzunmüddətli layihələrin həyata keçirilməsi üçün belə mənəvi yaxınlığın əhəmiyyəti böyükdür. Bu baxımdan TDT-ni yalnız siyasi və iqtisadi maraqların uzlaşdırıldığı platforma kimi qiymətləndirmək kifayət deyil.

Müasir mərhələdə əsas məsələ həmin yaxınlığı konkret layihələrə və institusional mexanizmlərə çevirməkdir. Azərbaycan Türk dünyasını yalnız ortaq keçmişlə deyil, həm də ortaq gələcək hədəfləri ətrafında birləşdirən əsas mərkəzlərdən biri kimi çıxış edir. Nəqliyyat dəhlizləri, ticarət əlaqələri, enerji əməkdaşlığı, rəqəmsal transformasiya, təhsil, elm və mədəniyyət sahələrində atılan addımlar ortaq potensialın praktik nəticələrə çevrilməsinə xidmət edir. Beləliklə, tarixi-mədəni bağlar TDT üçün başlanğıc nöqtəsi olduğu halda, onun gələcək inkişafını müəyyən edən əsas amil bu potensialın müasir əməkdaşlıq mexanizmləri ilə tamamlanmasıdır. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, təşkilatımızın daha bir üstünlüyü ondan ibarətdir ki, o, ümumi etnik köklərə malik ölkələri birləşdirir: "Dünyada belə təşkilatlar o qədər də çox deyil. Beynəlxalq təşkilatların siyahısına nəzər salsaq, nadir hallarda belə mənzərəyə rast gəlmək olar. Bu isə həmrəyliyin mühüm amilidir. Çünki iqtisadi və siyasi maraqlardan əlavə, ölkələrimizin ərazisində yaşayan insanlar, xalqlar arasında münasibətlər də qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsində mühüm rol oynayır. Buna görə də belə mənəvi birlik, mədəniyyətlərin və dillərin oxşarlığı, ümumi etnik köklər - bütün bunlar təşkilatımızı möhkəmləndirir və ona xüsusi əhəmiyyət verir".

***P.İSMAYILOV***

# Azərbaycanın regional inkişaf nümunəsi

Hazırda dünyanın əksər ölkələrində izlənilən tipik proseslərdən biri regionlarla paytaxtlar və digər iri şəhərlərin inkişafında kəskin fərqlərin yaranmasıdır. Adətən diqqət meqapolislərin sürətli inkişafına yönəldilir, regionlar isə getdikcə daha çox dərəcədə geridə qalır.

Müstəqil Azərbaycanın nümunəsində isə biz fərqli yanaşma görürük. Belə ki, ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bütün respublika üzrə tarazlı inkişafın təmin edilməsi strategiyası müəyyənləşdirilib və ötən dövrdə bu istiqamətdə bölgələrdə çoxsaylı layihələr reallaşdırılıb. Beləliklə, bölgələrimiz də ölkənin ümumi sosial-iqtisadi inkişaf proseslərinə cəlb olunub. Əlamətdar haldır ki, Prezident İlham Əliyev dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edən regional inkişafı şəxsi nəzarətində saxlayır. Dövlətimizin başçısının birinci xanım Mehriban Əliyeva ilə birlikdə vaxtaşırı regionlara səfərlər edərək görülən işlərlə yerindəcə tanış olması, layihələrin icra vəziyyəti ilə maraqlanması və dəyərli tövsiyələrini verməsi bunun əyani təsdiqidir. Son olaraq Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu günlərdə Şamaxıda səfərdə olublar. Səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım Şamaxıda “Pirqulu Park” hotelinin, “Meysari Grand Hotel & SPA” kompleksinin açılışına qatılıb, “Nəsimi Bağları” kompleksinə gedib, həmçinin Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar.



## Regionlarda müasir infrastruktur quruculuğu

Son 22 ildə regional inkişaf strategiyasının reallaşdırılmasında qazanılan nəticələrə istinadən belə bir fikri əminliklə ifadə edə bilərik ki, bütün ölkə üzrə zəruri infrastrukturun yaradılması Dövlət proqramlarının əsas istiqamətini təşkil edib. Bəhs olunan dövrdə həm müvafiq Dövlət proqramları çərçivəsində, həm də Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında bütün ölkə üzrə müxtəlif infrastruktur layihələrinin icrası təmin edilib. Bunun nəticəsidir ki, qısa müddətdə Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib. O cümlədən Dövlət proqramlarının icrası çərçivəsində Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları, Baş Mil-Muğan kollektoru kimi nəhəng layihələrin icrası böyük uğurdur. Bu qəbildən olan su layihələrinin həyata keçirilməsi sayəsində regionlarda dövriyyəyə yeni



torpaqlar cəlb olunub, eyni zamanda, əhalinin içməli su təminatı yaxşılaşıb. Hazırda ölkə üzrə qazlaşdırmanın səviyyəsi 95 faizi ötüb. Sevindirici haldır ki, bu gün ucqar dağ kəndlərimiz də mavi yanacaqla təmin olunurlar. Bəhs olunan dövrdə ölkə üzrə yol infrastrukturunun yenilənməsi də müstəqil Azərbaycanın böyük uğurudur.

Eyni zamanda, son illərdə ölkə üzrə reallaşdırılan infrastruktur layihələrinin böyük bir qismi sosial təyinatlıdır. Bu sırada respublikanın ayrı-ayrı bölgələrində 3 mindən çox məktəbin inşasını və yaxud əsaslı şəkildə yenidən qurulmasını xüsusi olaraq qeyd edə bilərik. Regionlarda təhsil infrastrukturunun yenilənməsində Heydər Əliyev Fondu da yaxından iştirak edir. Bundan başqa, regional inkişaf proqramlarının icrası çərçivəsində bölgələrimizdə ən müasir tələblərə cavab verən xəstəxanalar, diaqnostika mərkəzləri, idman kompleksləri inşa olunub.

## Bütün ölkə boyunca hərtərəfli inkişafı hədəfləyən Dövlət proqramları

Bəhs olunan səfər ölkəmizdə regional inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirildiyini təsdiqləyir. Bu siyasətin təməli isə 2004-cü ildə Prezident İlham Əliyev tərəfindən qoyulub. Söhbət respublikamızda dövlətimizin başçısının müvafiq fərmanı əsasında 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul olunmasından gedir. Beləliklə də, 22 il bundan əvvəl ölkəmizdə uğurlu bir ənənənin əsası qoyulub. Regional inkişafa dair ilk Dövlət Proqramı 2004 - 2008-ci illəri əhatə edirdi. Sonrakı mərhələdə isə 2009 - 2013, 2014 - 2018, 2019 - 2023-cü illəri əhatə etməklə daha 3 Dövlət Proqramı qəbul olunub.

Ölkənin bütün regionlarının hərtərəfli inkişafını hədəfləyən müvafiq Dövlət proqramları dərindən əsaslandırılmış konseptual sənədlər olmaqla yanaşı, həm də geniş praktiki məzmun daşıyıblar. Onlar hazırlanarkən dünyadakı qabaqcıl təcrübə və müasir çağırışlar nəzərə alınıb. Eyni zamanda, regional inkişaf proqramları hazırlanarkən bölgələrin ənənələri, əmək ehtiyatları, insanların arzu və istəkləri diqqət mərkəzində saxlanıb. Bütün bunlar da sözügedən Dövlət proqramlarının işlək olmasını təmin edib.

## Ölkənin turizm cəlbediciliyinin artırılması

Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, hazırda turizm milli iqtisadiyyatların ən perspektivli istiqamətlərindən birinə çevrilməkdədir. Azərbaycanın da zəngin turizm potensialı var və ölkəmizdə bu potensialdan səmərəli şəkildə istifadə olunması istiqamətində zəruri addımlar atılır. Şübhə yoxdur ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı” respublikamızda bu sahənin inkişafına güclü təkan verəcək.

Qədim tarixi, zəngin mədəni irsi, gözəl təbiəti və özünəməxsus mülayim iqlimi ilə seçilən Şamaxı da Azərbaycanın cəlbedici turizm məkanlarından biridir. Dağ mənzərələri, üzüm bağları, qədim abidələri və qonaqpərvərlik ənənələri bu bölgəni istirahət və səyahət üçün həm yay, həm də qış fəslində əlverişli edir. Şamaxıda dövlət başçısının və birinci xanımın iştirakı ilə yeni turizm obyektlərinin açılması isə turizm infrastrukturunun inkişafına töhfə olaraq yerli və xarici qonaqların rahat istirahəti, rayonun turizm potensialından daha səmərəli istifadəsi və yerli iqtisadiyyatın inkişafı üçün əlavə imkanlar yaradacaq.

***Mübariz FEYİZLİ***

# “Yaşıl enerji”də yeni dövr

## “Qobustan” GES-in istifadəyə verilməsi Azərbaycanın bərpaolunan enerji potensialını daha da gücləndirir

Prezident İlham Əliyevin açılışını etdiyi Qaradağ rayonundakı 100 MVt gücündə “Qobustan” Günəş Elektrik Stansiyası (GES) Azərbaycanın bərpaolunan enerji potensialını nümayiş etdirməklə, regionda “yaşıl enerji” mərkəzinə çevrildiyini təsdiqləyir. Bu, ölkəmizdə elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payının daha da artması fonunda “yaşıl enerji” strategiyasının uğurla irəlilədiyini nümayiş etdirir.

Qaradağ rayonunun Pirsaat qəsəbəsində 300,77 hektar torpaq sahəsində inşa edilən Günəş elektrik stansiyası Çinin “Universal International Holdings Limited” şirkəti tərəfindən icra edilən birinci layihədir. Bu, Azərbaycan-Çin “yaşıl enerji” əməkdaşlığının nümunəvi modeli olmaqla, qarşıdakı dövrdə bu istiqamətdə davamlı layihələrin həyata keçirilməsinə imkan yaradır. 2025-ci ildə Çin şirkətləri ilə ümumilikdə 260 MVt günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən Günəş stansiyası və 30 MVt-lıq batareya enerji saxlanc sistemi üzrə sənədlər imzalanıb ki, bu da Çin texnologiya investorlarının ölkəmizdə geniş təmsilçiliyi deməkdir.

## Bərpaolunan enerji stansiyalarının sayı 85-ə çatıb

“Qobustan” GES-in açılışı ilə təkcə GES-lərin ümumi gücü təxminən 378,2 MVt-a yüksəlir. “Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsindən sonra hər il təxminən əlavə olaraq 200 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 45 milyon kubmetr təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 97 min ton azaltmağa imkan verəcək. Yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən bu layihələr ölkəmizin elektrik enerjisi ilə təminatı məsələsinə töhfə verməklə yanaşı, təbii qaza qənaət etməyə və atmosferə atılan karbon emissiyalarının xeyli azaltmağa şərait yaradır.

Beləliklə, bu stansiya da daxil olmaqla, Azərbaycanda bərpaolunan enerji mənbələrinin (su, külək, günəş və bio) ümumi gücü 2170 MVt-a, stansiyaların sayı isə 85-ə çatıb.




Hazırda Azərbaycanda bərpaolunan enerjinin ümumi generasiya güclərində payı təxminən 20 faizə yaxındır. Hökumətin planları 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaqdır. Mövcud layihələrin sürətlə icrası onu göstərir ki, Azərbaycan bu hədəfə daha tez çatacaq və yaxın 4 ildə “yaşıl enerji” gücü 40 faizə qədər yüksələcək.

Qiymətləndirmələrə əsasən, Azərbaycanda “yaşıl enerji” mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır. İqtisadi potensial 27 QVt, o cümlədən külək enerjisi üzrə 3 QVt, Günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. “Qobustan” Günəş Elektrik Stansiyasının istismara verilməsi ilə ölkəmizdə bərpaolunan enerji mənbələrinin ümumi gücü 2170 MVt, stansiyaların sayı isə 85 olacaq. Onların da 65-i su elektrik stansiyası (1443,5 MVt), 6-sı külək elektrik stansiyası (306,5 MVt), 10-u Günəş elektrik stansiyası (378,2 MVt), 3-ü hibrid elektrik stansiyası (7,3 MVt), 1-i isə BİO elektrik stansiyasıdır (37 MVt). Bərpaolunan enerji mənbələri ölkəmizin ümumi enerji gücünün təxminən 21,5 faizini təşkil edir. 2027-ci ilin sonunadək təxminən 1,5-2 QVt gücündə bərpaolunan enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur.

## “Yaşıl enerji”nin payı 30 faizi ötəcək



## Qarabağ və Şərqi Zəngəzurun zəngin potensialı

“Yaşıl enerji” zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgəsində hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər bu ərazilərdə 40-dan artıq kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz “yaşıl enerji” istehsal edəcək yeni su elektrik stansiyalarının tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bu isə bu bölgədə bərpaolunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq.

## Xarici investorlarla əməkdaşlıq genişlənir

Azərbaycan hökuməti “yaşıl enerji” sektorunda tətbiq etdiyi stimullaşdırıcı addımlarla xarici investorların bu sahəyə cəlb edilməsini son illər daha da gücləndirib. Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın “bp”, Avstraliyanın “Fortescue Future Industries”, Yaponiyanın “TEPSCO”, İtaliyanın “Maire Tecnimont”, Çinin “China Gezhouba Group Overseas Investment”, Fransanın “Total Energies” və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Ümumilikdə, Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 45 şirkətin təmsil olunduğu tədbirdə “yaşıl enerji” sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan başqa, Azərbaycanda Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) kimi beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələr həyata keçirilir. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının inşasına kreditlər ayıracaq. Təkcə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti ilə maliyyə tutumu 1 milyard dollar olan müqavilələrin imzalanması “yaşıl enerji” hərəkatında yeni dalğanın başlanğıcı sayıla bilər.

***E.CƏFƏRLİ***

# “Real Ermənistan” konsepsiyası ciddi böhran keçirir

## Erməni cəmiyyətinin diplomatların Qarabağ və Şərqi Zəngəzura səfərinə reaksiyası bunu təsdiqləyir

Torpaqlarımız erməni işğalından azad edildikdən sonra Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirilir. Hazırda azad edilmiş doğma yurdlarımıza xarici qonaqlar da səfərlər edirlər. Eləcə də ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunur. Sentyabrın 11-12-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura ikigünlük səfəri baş tutub. Səfərdə 58 ölkə və 9 beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edib. Səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Prezident İlham Əliyevin rəhbərliyi ilə Xankəndi və Şuşa şəhərlərində, Ağdərə və Kəlbəcər rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq və inkişaf prosesi çərçivəsində reallaşdırılan sosial və iqtisadi infrastruktur layihələri, eləcə də tarixi-mədəni irs nümunələrinin mövcud vəziyyəti, onların qorunması və bərpası istiqamətində görülən tədbirlərlə tanış olublar.

### İcma: Ermənilər “miatsum”dan tam imtinada tərəddüd edir

Lakin diplomatların Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri Ermənistanda ciddi “narahatlıq” doğurub. Ermənilərin xarici diplomatların bu səfəri ətrafında əsassız hay-küy kampaniyası səngimək bilmir. Bununla bağlı Azərbaycan cəmiyyətində haqlı olaraq rəsmi İrəvanın sülh prosesində səmimi olmadığı qənaəti formalaşır. Qərbi Azərbaycan İcması da ermənilərin əsassız iddialarına laqeyd qalmır, mövzu ilə bağlı öz mövqeyini ifadə edir. İcmanın növbəti bəyanatında da bildirilib ki, iki ölkə arasında sülh və normallaşma prosesini zədələyən bu cür reaksiya erməni cəmiyyətinin bədnam “miatsum” siyasətindən tam şəkildə imtina etmək, Azərbaycanın suverenliyini qəbul etmək və dinc qonşuluq şəraitində yaşamaq məsələsində hələ də ciddi tərəddüdlərinin olduğunu göstərir. Ermənistan hakimiyyətinin irəli sürdüyü “Real Ermənistan” konsepsiyası faktiki olaraq, ciddi böhran keçirir.

Bəyanatda qeyd olunub ki, son günlər bir daha erməni cəmiyyətində saxta tarix, saxta qədimlik, milli müstəsnalıq üzərində qurulan yanaşmaların yenidən önə çıxmasını müşahidə edirik: “Böyük tarixə, zəngin mədəni irsə malik Azərbaycan xalqının tarixinin, mədəniyyətinin inkar edilməsi kökündən yanlış və təhlükəli siyasətdir. Sentyabrın 15-də bir sıra xarici ölkələrdən olan din xadimlərini qəbul edən Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı dünya mədəniyyətinə Nizami Gəncəvi, Xaqani Şirvani, Nəsimi, Seyid Yəhya Bakuvi, Şah İsmayıl Xətai, Füzuli kimi dahi şəxsiyyətlər və mütəfəkkirlər bəxş edib. Məhz bu kimi zəhərli ideologiya, yanaşmalar Ermənistanı, xüsusilə son 30 il ərzində, “miatsum” siyasətinə sürükləmiş, Qərbi azərbaycanlıların Ermənistandan deportasiyasına, Azərbaycan ərazilərinin işğalına, məqsədli şəkildə mədəni irsin, o cümlədən məscidlərin dağıdılmasına zəmin yaradıb. Bu siyasətin Ermənistan dövləti və erməni xalqı üçün hansı nəticələrə gətirib çıxarması hər kəsə aydındır”.

### Yalançı tarixin girovları...

Bəyanatda Qərbi Azərbaycan İcması erməni cəmiyyətini keçmişin səhvlərini təkrarlamamağa, Azərbaycanın daxili işlərinə müdaxilə cəhdlərinə son qoymağa, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü tam şəkildə qəbul etməyə, habelə mütəmadi olaraq Azərbaycanda haqlı narazılıq yaradan təxribatçı əməllərdən çəkinməyə çağırıb.

İcmanın digər bəyanatında isə vurğulanıb ki, baş verənlər bir daha erməni xalqının sülhə hazır olmadığını göstərir. Ermənistan hakimiyyəti cəmiyyəti sülhə hazırlamaq, “Real Ermənistan” konsepsiyasını təlqin etmək əvəzinə, özü prosesləri istiqamətləndirir və qəbuledilməz bəyanatlar verir. “Ermənistanın Azərbaycanın suveren ərazilərində qədim Azərbaycan xalqına məxsus mədəni irsə iddia etməsi və bu ölkənin baş nazirinin Gəncəsər məbədinin guya erməni mənşəli olması ilə bağlı açıqlaması qəbuledilməzdir”, - deyə bəyanatda qeyd edilib.

Diqqətə çatdırılıb ki, erməni cəmiyyəti başqa xalqların torpaqlarına və mədəniyyətinə göz dikməkdən əl çəkməli, yalançı tarixin girovu olmaqdan xilas olmalıdır. Əgər Ermənistanı həqiqətən mədəni irsin qorunması qayğılandırırsa, onda Azərbaycan xalqına məxsus məscidlərin, tarixi abidələrin və qəbiristanlıqların dağıdılmasına, eləcə də İrəvandakı Göy məscidin işğal dövründə Şuşadakı Yuxarı Gövhər Ağa məscidi kimi “bərpa edilərək” başqa xalqın adına çıxarılması kimi əməllərə son qoymalıdır.

*Nardar BAYRAMLI*

---

# 3,6 milyard dollardan çox...

## Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşları artıb

Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyaların həcmində artım dinamikası müşahidə edilməkdədir. 2026-cı ilin birinci yarısında ölkə iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmi 3 milyard 666 milyon 873 min dollara bərabər olub. Mərkəzi Bankın (MB) Statistika departamentinin direktoru Samir Nəsirov bildirib ki, sərmayə yatıran ölkələrin ilk beşliyində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Türkiyə, Kipr, Rusiya, İran İslam Respublikası yer alıb. Qeyd edilən dövrdə Azərbaycanın özü də potensial sərmayədar ölkə kimi maliyyə imkanlarını artırıb və xarici iqtisadiyyata yönəldilmiş birbaşa investisiyaların həcmi 5 milyard 360 min dollar təşkil edib. Azərbaycanın ən çox kapital yönəltdiyi ölkələrin sırasında İtaliya, Türkiyə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Ərəb Əmirlikləri və Gürcüstan qərarlaşıb.

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşlarının artmasında ən mühüm amillərdən biri ölkədə təmin edilmiş sağlam və münbit investisiya mühitidir. Bu istiqamətdə respublikamızda həyata keçirilən hüquqi və institusional islahatlar mühüm rol oynamaqdadır. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu ssenariyə uyğun olaraq biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da xarici sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub.

### Son 22 ildə 180 milyard dollar həcmində xarici investisiya

İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, “İnvestisiya fəaliyyəti haqqında” və “Xarici investisiyaların qorunması haqqında” qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb.

Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq etməkdədir. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Beləliklə, qeyd edilən təşviqedici tədbirlər, dövlətin xarici investorlara olan dəstəyi biznes sektorunun və beynəlxalq maliyyə qurumlarının Azərbaycana olan investisiya marağını yüksəldir. Ümumilikdə, 2003-2024-cü illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların həcmi təxminən 340 milyard dollar təşkil edib ki, onun 180 milyard dolları xarici investisiyalardır.

### Azərbaycanın investisiya reytinqi “BBB” səviyyəsinə yüksəlib

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. “Standart & Poor’s” və “Moods” reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq “BB+” səviyyəsinə qaldırıb. Eyni zamanda “Fitch Ratings” agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini “pozitiv” proqnozu ilə “BBB” səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik “Top-7”qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.



### Azad ərazilərdə sərmayəçilər üçün güzəştlər

Azərbaycanın müasir inkişaf gündəliyində əsas investisiya sahələri kimi süni intellekt və “yaşıl enerji”yə investisiya cəlb olunması əsas strateji xətt kimi müəyyən edilib. Resurs zənginliyi ilə diqqəti cəlb edən işğaldan azad edilmiş ərazilərə xarici investorların marağı böyük olduğundan çoxsaylı iqtisadi stimullar, güzəştlər tətbiq olunmaqdadır. Dövlət başçısının “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə xüsusi axınları sürətləndirəcək.

*E.CƏFƏRLİ*

---

# Böyük Britaniya Aİ ilə münasibətləri yenidən qurmağa çalışır



Böyük Britaniya Avropa İttifaqı ilə münasibətlərin yenidən qurulmasına çalışır.

AZƏRTAC xəbər verir ki, “Financial Times” (FT) bu barədə mənbələrə istinadla məlumat yayıb.

Məlumata görə, Böyük Britaniyanın maliyyə naziri Con Heli qarşıdakı danışıqlarda Londonun Aİ ilə münasibətlərdə “yenidən qurulma” istəyi barədə həmkarlarına məlumat verəcək.

London həmçinin Avropa İttifaqının “Avropada istehsal olunub” sənaye siyasətinə Böyük Britaniyanın da daxil edilməsini təklif etməyi planlaşdırır. Bu təşəbbüsün Aİ ölkələri və Avropa Parlamenti tərəfindən dəstəklənməsi tələb olunur.

# ABŞ Avropadakı hərbi kontingentini üçdəbirə qədər azalda bilər




Pentaqon Avropadakı hərbi kontingentini üçdəbirə qədər azaldılmasını nəzərdən keçirir.

NBC News” bu barədə mənbələrə istinadla məlumat yayıb.

Məlumata görə, Avropadakı ABŞ hərbçilərinin sayı ən azı 25 min nəfər azaldıla və kontingent 40 min nəfərə endirilə bilər. İxtisarların Almaniya, İspaniya və İtaliyaya təsir edə biləcəyi bildirilir.

Pentaqon, həmçinin hərbi təyyarə, gəmi və digər silahların Avropadan çıxarılması imkanlarını araşdırır. Müvafiq hesabatın noyabrın 6-dək hazırlanacağı və daha sonra Prezident Donald Trampa təqdim ediləcəyi gözlənilir.

# Bütün strateji hədəflər reallığa çevrilir

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının XII konfransı keçirilib.







Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Yeni Azərbaycan Partiyasının təsis edilməsi müstəqil Azərbaycanın siyasi tarixində mühüm hadisələrdən biri kimi qiymətləndirilir. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkənin parçalanması və məhv olmaq təhlükəsinin qarşısı alınıb, Azərbaycan sonrakı dövrdə müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanıb.

Hesabat dövründə YAP Yasamal rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə qarşılıqlı əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi istiqamətində görülən işlər barədə də ətraflı məlumat verilib.

Yasamal Rayon İcra Hakimiyyətin başçısı Elşad Həsənov partiyanın ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək xalqa layiqli xidmət nümunəsi yaratdığını deyib. O qeyd edib ki, Azərbaycan xalqı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşərək həyata keçirilən siyasəti dəstəkləyir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli vurğulayıb ki, müstəqil Azərbaycan dövləti mühüm siyasi-ideoloji və iqtisadi-mədəni təməllər üzərində inkişaf edərək yeni hədəflərə doğru inamla irəliləyir. Sarsılmaz təməllərə söykənən xalq-iqtidar birliyi davamlı uğurların əsasıdır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova vurğulayıb ki, ardıcıl nailiyyətlər qazanan müasir Azərbaycanın inkişafı davamlı, dinamik və hərtərəfli xarakter alıb. O əminlikdə qeyd edib ki, Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni möhtəşəm uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, milli həmrəyliyin güclənməsini təmin edir.

"H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini, Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Nurlan Mustafayevin anası Rahilə Ramazanova, Milli Məclisin VI çağırış deputatı Elnur Allahverdiyev və "Z.Xəlilov küç.33" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və yeni reallıqlardan irəli gələn hədəflərin reallaşdırılmasının ölkəmizi yeni zirvələrə yüksəldəcəyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının ümummilli mənafeləri rəhbər tutaraq ölkədə ictimai-siyasi sabitliyin təminatçısı və dayanıqlı inkişafın aparıcı qüvvəsi kimi çıxış etdiyini deyib.

Konfransda YAP Yasamal rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Qalib Azərbaycan regionda yeni reallıqlar yaradıb

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Qobustan rayon təşkilatının IX konfransı keçirilib.







Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin zəngin irsi və misilsiz xidmətlərindən, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasi xəttin uğurlu nəticələrindən danışıb. Yeni Azərbaycan Partiyasının Azərbaycanın müstəqillik tarixində müstəsna rolu xüsusi vurğulanıb.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər əldə etdiyini deyib. Hazırda Azərbaycanın regionun lider ölkəsi olmaqla, dünya arenasında müstəqil siyasət yürüdən etibarlı tərəfdaş kimi qəbul edildiyini vurğulayıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyətindən danışıb. O, qalib Azərbaycanın regionda yeni reallıqlar yaratdığını deyib. Əldə olunan tarixi nailiyyətlərin Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi olduğu diqqətə çatdırılıb.

Daha sonra "Təhsil" ərazi partiya təşkilatının sədri Anar Osmanov, "Səhiyyə" ərazi partiya təşkilatının sədri Günay Muradova, "Mədəniyyət" ərazi partiya təşkilatının sədr müavini Cahangir Ağaməmmədov, "Gənclər" ərazi partiya təşkilatının sədri Əlibaba Məlikli, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Elyar Vəliyevin atası Arif Vəliyev, "Toxumçuluq" ərazi partiya təşkilatının sədri Atabəy Cahangirov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev çıxışında Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi mövqeyindən, eləcə də dövlətçilik ənənələrinin möhkəmləndirilməsindəki rolundan bəhs edib.

Konfransda YAP Qobustan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP-ın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını təsdiqləyir

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Sabirabad rayon təşkilatının IX konfransı keçirilib.








Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov hesabat dövründə təşkilatın fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun şəkildə həyata keçirildiyini və rayonun ictimai-siyasi həyatında fəal iştirak edildiyini deyib. O qeyd edib ki, partiya üzvlərinin ictimai fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparılıb.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illər əldə etdiyi uğurlardan, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının bu gün də uğurla davam etdirilməsindən danışıb. O qeyd edib ki, uzun müddət işğal altında saxlanılmış torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynayır. Partiya Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji xətti əsas götürərək cəmiyyətin müxtəlif təbəqələrini öz ətrafında birləşdirərək ölkənin gələcək inkişafına xidmət edən layihələrə dəstək verir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolun xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını və sarsılmaz olduğunu təsdiqlədiyini deyib. Onun sözlərinə görə, uğurlu inkişafa gedən bu yolda Azərbaycan vətəndaşları Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, Vətənin mənafeyi naminə səy göstərirlər.

Konfransda partiya üzvləri Nadir Quliyev və Cəmilə Atakişiyeva Yeni Azərbaycan Partiyasının bugünədək xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının 2021-ci ildə baş tutan VII qurultayından sonra qarşıya qoyulan vəzifələrdən, əsas fəaliyyət istiqamətlərindən və ərazi partiya təşkilatlarının rolunun artırılmasının əhəmiyyətindən bəhs edib.

Konfransda YAP Sabirabad rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Astara rayon təşkilatının XII konfransı keçirilib

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Astara rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.







Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, hesabat dövründə rayon təşkilatı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində ardıcıl və sistemli iş aparıb. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsinin diqqət mərkəzində saxlanıldığı qeyd olunub.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət ölkənin davamlı inkişafına töhfə verir. O, Astara rayonunda həyata keçirilən abadlıq-quruculuq və sosial-iqtisadi layihələrdən geniş bəhs edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov qeyd edib ki, partiyanın milli maraqlara əsaslanan siyasi mövqeyi ölkənin davamlı inkişafına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə xidmət edir. O, YAP Astara rayon təşkilatının hesabat dövründə fəallığı ilə seçildiyini, qarşıya qoyulan vəzifələrin icrasında partiya üzvlərinin birgə fəaliyyətinin mühüm rol oynadığını deyib.

Astara Pedaqoji Kolleci ərazi partiya təşkilatının sədri, şəhid atası Kamran Kazımov, Astara Təhsil sektoru ərazi partiya təşkilatının sədri Xədicə Əliyeva, Astara Rayon Ağsaqqallar Şurasının sədri Natiq İbadov partiyanın keçdiyi şərəfli yoldan və hesabat dövründə rayon təşkilatının fəaliyyətindən danışıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov partiyanın VII qurultayından sonra müəyyənləşdirilən prioritet vəzifələrə toxunub. Qeyd olunub ki, YAP Astara rayon təşkilatı hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun quraraq məqsədyönlü fəaliyyət göstərib.

Konfransda YAP Astara rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP-ın fəaliyyəti milli maraqlarımızın qorunmasına hədəflənib

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Cəbrayıl rayon təşkilatının X konfransı keçirilib.







Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın siyasi, ictimai, mədəni və intellektual inkişafında mühüm yer tutan qüvvəyə çevrildiyini deyib. Qeyd olunub ki, YAP yarandığı gündən etibarən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf, idarəetmənin müasirləşdirilməsi istiqamətlərində fəal mövqe sərgiləyib. Partiyanın ölkənin tərəqqisi naminə mühüm addımlar atdığı və bu gün də həmin missiyanı uğurla davam etdirdiyi vurğulanıb.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Yeni Azərbaycan Partiyasının yaranmasının təkcə siyasi hadisə deyil, həm də ölkəmizin ictimai-siyasi həyatında dönüş yaradan mühüm mərhələ olduğunu deyib. O qeyd edib ki, partiyanın təsis edilməsi Azərbaycanı xaos və qeyri-sabitlikdən çıxararaq sabitlik və inkişaf yoluna yönəldən əsas amillərdən biri olub.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan tarixi Zəfər qazanıb, ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa edib. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri uğurla davam etdirilir. Böyük Qayıdışa dair Dövlət Proqramına uyğun olaraq, bir sıra şəhər və kəndlərimizə, o cümlədən Cəbrayıla keçmiş məcburi köçkünlərin qayıdışı reallaşıb.

Cəbrayıl rayon Ağsaqallar Şurasının sədri Vaqif Məhərrəmov, Cəbrayıl rayon təhsil sektorunun müdiri Zamiq Qurbanov, Vahid İsmayılov adına Çərəkən kənd tam orta məktəbin direktoru Arifə Əhmədova partiyanın gələcək illərdə də ölkənin inkişafına mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından ötən dövrdə görülən işlərdən danışıb, partiyanın Proqram və Nizamnamə tələblərinə uyğun olaraq yerli təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində sistemli işlərin həyata keçirildiyini deyib.

Konfransda YAP Cəbrayıl rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Azərbaycanın davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır

Sentyabr ayının 18-də Yeni Azərbaycan Partiyası (YAP) Ağsu rayon təşkilatının XI konfransı keçirilib.







Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, rayon təşkilatı ötən dövr ərzində ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar tarixlərlə bağlı fəaliyyətini ardıcıl şəkildə davam etdirmişdir. Ərazi partiya təşkilatları ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, üzvlərin ictimai-siyasi fəallığının artırılması, həmçinin gənclərin və qadınların partiya fəaliyyətində iştirakının genişləndirilməsi istiqamətində bir sıra layihələr həyata keçirilib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov deyib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi və müasir infrastrukturun formalaşdırılması istiqamətindəki məqsədyönlü siyasət bu gün Ağsu rayonunda da uğurla həyata keçirilir. Bu siyasətin nəticəsi olaraq rayonda son illər ərzində mühüm sosial-iqtisadi, abadlıq və quruculuq layihələri həyata keçirilmiş, yol və infrastruktur yenilənmiş, yaşayış məntəqələrində insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Azərbaycanın son illərdə əldə etdiyi tarixi əhəmiyyətli nailiyyətlərdən bəhs edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində qlobal arenada dövlətimizin mövqeyi daha da güclənib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunub.

Sonra Ağsu Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Nəzərov, partiya veteranı Əli Hüseynov və Təhsil işçiləri ərazi partiya təşkilatının sədr müavini Günay İnayətova çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev çıxışında Yeni Azərbaycan Partiyasının ictimai-siyasi proseslərdə fəal mövqeyi ilə seçildiyini deyib. O, qarşıya qoyulan məqsədlərin reallaşdırılmasında yerli təşkilatların fəaliyyətinə xüsusi diqqət çəkib.

Konfransda YAP Ağsu rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Avropanın yeni seçimi - ifrat sağçılar

Avropada yeni siyasi konfiqurasiya formalaşmaqdadır. Məlumdur ki, qoca qitədə ənənəvi olaraq mərkəzçi qüvvələr siyasi mübarizənin drayver qüvvəsini təşkil ediblər və ayrı-ayrı ölkələrdə milli hökumətlər onların iradəsi ilə formalaşıb. Son illərin reallıqları fonunda isə Avropanın siyasi səhnəsində qüvvələr nisbətinin dəyişdiyi müşahidə edilməkdədir. Belə ki, həm Avropa Parlamentinə (AP), həm də milli qanunvericilik orqanlarına keçirilən seçkilərdə sağ təmayüllü partiyalar mərkəzçi qüvvələri üstələyərək daha çox səs qazanırlar. 2022-ci ildən etibarən bu proses daha da sürətlənib və 2024-cü ildə AP-yə keçirilən seçkilərdə ən yüksək həddə çatıb.

Uzaq olmayan tarixdə başlayan və günümüzdə daha da güclənən bu proses ayrı-ayrı ölkələrdə xüsusilə qabarıq şəkildə nəzərə çarpır. Ortada real nəticələr var. İtaliyada 2022-ci ildə hazırkı Baş nazir Ciorcia Meloninin rəhbərlik etdiyi “İtaliya Qardaşları” partiyası, Niderlandda 2023-cü ildə Geert Vildersin “Azadlıq Partiyası” qalib gəlib, Slovakiyada isə Robert Fitsonun “Kurs - Sosial Demokratiya” partiyası sağçı hökumət formalaşdırıb. Sağçıların son uğur hekayələrindən bir Avstriyada yazılıb. Bu ölkədə 2024-cü ildə ifrat sağçı “Avstriya Azadlıq Partiyası” (FPO) parlament seçkilərində 29,2 faiz səs toplamaqla ilk dəfə birinci yeri tutub. Nəticədə, 2025-ci il yanvarın 6-da Avstriya Prezidenti Aleksandr Van der Bellen FPO lideri Herbert Kiklyuya yeni hökumətin formalaşdırılmasını tapşırıb. 2022-ci ildə “İsveç Demokratları” sağçı populist partiyasının da daxil olduğu sağçı blok parlament seçkilərində ikinci yeri tutub.

Eyni zamanda, 2024-cü ildə Avropa Parlamentinə seçkilər də sağçıların triumfu ilə yadda qalıb. Həmin seçkilərdə Fransada Marin Le Penin liderliyi ilə ifrat sağçı “Milli Birlik” partiyası yüksək nəticə göstərərək ikinci yeri tutub və əhəmiyyətli sayda yer qazanıb. 2024-cü ilin yayında Fransada Milli Assambleyaya keçirilən növbədənkənar parlament seçkilərinin birinci mərhələsində də “Milli Birlik” digər siyasi rəqiblərini böyük fərqlə arxada qoymağı bacarıb. İkinci turda hakimiyyət seçki manipulyasiyalarına əl atmaq məcburiyyətində qaldı və bəlikliklə də sağçılar solçu koalisiyadan, eləcə də mərkəzçilərindən sonra üçüncü yeri tutmaqla kifayətləndi.

Fransada 2027-ci ildə keçiriləcək seçkilərə hazırlıq dövründə ifrat sağçılar yenidən revanş götürüblər. Konstitusiyaya görə, səsvermə hazırkı prezidentin səlahiyyət müddətinin bitməsindən 20-35 gün əvvəl keçirilməlidir. Seçkilər Emmanuel Makronun ikinci prezidentlik müddətinin 14 mayda bitməsinə 12 gün qalmış başa çatacaq. Hökumətin iyulun əvvəlində elan etdiyi kimi, prezident seçkilərinin birinci turu 2027-ci il 18 aprel bazar günü keçiriləcək, ikinci tur isə 2 may bazar gününə təyin olunub. Vaxt ötdükcə yeni-yeni namizədlərin adı bəlli olur -son günlərədək namizədliyini rəsmi qaydada irəli sürənlərin sayı 25-ə çatıb. Seçkilərdə qolbaqsız iştirak hüququ qazanan Marin Le Pen ən favorit namizəd sayılır.

Almaniyada da oxşar proseslər izlənilir. Bu ölkədə son vaxtlarda aparılan ardıcıl rəy sorğuları ifrat sağçı Almaniya üçün Alternativ (AfD) partiyasının rəqiblərini getdikcə daha böyük fərqlə arxada qoyduğunu göstərirdi. Bu yüksəliş sentyabrın 6-da Almaniyanın Saksoniya-Anhalt əyalətində baş tutan parlament (Landtaq) seçkilərində AfD-nin böyük fərqlə qələbə qazanması ilə nəticələnib. Bu dəfə AfD beş il əvvəlki seçkilərdən sonra öz nəticələrini iki dəfədən də çox yaxşılaşdıraraq 44 faiz səslə birinci olub. Hazırkı Kansler Fridrix Mertsin partiyası - Xristian Demokratlar Birliyi (CDU) bu müqayisədə səslərinin təxminən yarısını itirərək 17,4 faizlə ikinci olub.

Qeyd edək ki, AfD-nin yüksəlişi yalnız bir əyalətlə məhdudlaşmır. Son INSA sorğusuna görə, partiyanın ümumölkə üzrə dəstəyi 28 faizə çatıb. Bu göstərici ilə AfD hazırda Almaniyada sorğularda ən populyar siyasi qüvvədir və CDU-nu da qabaqlayır. Son seçkilərin nəticələri göstərir ki, ifrat sağçılar Saksoniya-Anhaltda daha yüksək nüfuza malikdirlər.

Avropanın siyasi səhnəsində ifrat sağçıların yüksək populyarlıq qazanmaları bir sıra amillərlə izah olunur. Səbəblər sırasında ifrat sağçıların miqrantlara qarşı daha sərt çağırışlar etmələri xüsusi yer tutur. Sağçılar qeyri-qanuni miqrasiya və sərhəd təhlükəsizliyi ilə bağlı narahatlıqları ciddi şəkildə siyasi rəqabət predmetinə çevirməyi bacarıblar ki, bu da onların seçicilər arasında populyarlığını artırır. Sağçıların xüsusi vurğu etdiyi digər bir vacib məqam milli kimliyin qorunması məsələsidir. Qloballaşma şəraitində bu çağırış da bütün ölkələr kimi, Avropa məkanı üçün də son dərəcə aktualdır. Sağçılar bu məsələni ən ciddi şəkildə gündəmə gətirməklə xüsusilə də gənclər arasında elektoratlarının sayını artırmağa müvəffəq olurlar. İfrat sağçıların populist çıxışları həmçinin Avropa ölkələrində yaşanan iqtisadi-sosial çətinliklər fonunda onların işinə yarayır. Avropanın aparıcı dövlətlərində iqtisadi göstəricilərin aşağı düşməsi, dövlət borcu xərclərinin kəskin artması, büdcə kəsiri hökumətləri qənaət rejiminə sövq edir. Qənaət rejimlərinin tətbiqi isə xüsusilə də aşağı gəlirli seçiciləri ciddi şəkildə narazı salır. Bu məqamda ifrat sağçıların hökumətləri yarıtmaz fəaliyyətlərinə görə sərt şəkildə qınamaları ümid işığı kimi görünür.

Lakin ifrat sağçıların populist vədlərinə rəğmən, onların getdikcə daha çox ölkədə hakimiyyətə yiyələnmələri ümumi Avropa məkanı üçün cənnət erasının başlayacağı anlamına gəlmir. Əksinə, ifrat sağçıların mövqeyinin güclənməsinin qoca qitədə bir sıra təhlükəli meyllərə yol açacağı proqnoz edilir. Belə meyllər sırasında irqçiliyin, dözümsüzlüyün, İslamofobiyanın güclənəcəyi xüsusi vurğulanır. Məsələn, Fransada Marin Le Penin erkən başladığı seçkiqabağı kampaniyasının əsas şüarı irqçiliklə bağlıdır. Onun sözlərinə görə, lideri olduğu Milli Birlik partiyası hakimiyyətə gələcəyi təqdirdə ictimai yerlərdə hicabla bağlı cərimə sanksiyasının tətbiqini planlaşdırır. Xatırladaq ki, hicaba qarşı mübarizə Milli Birlik partiyasının fəaliyyətinin ənənəvi istiqamətlərindən biridir. Hələ 2022-ci il seçkiləri ərəfəsində Marin Le Pen Makronla debatda açıq şəkildə bəyan edib: “İctimai yerlərdə hicabın qadağan edilməsinin tərəfdarıyam”.

Sağçıların irqçilik çağırışları elektoratın müəyyən kəsimi üçün cəlbedici görünə bilər. Lakin belə meyllərin güclənməsi və dominant ideologiyaya çevrilməsi Avropaya yaxşı heç nə vəd etmir. Qoca qitə yenidən çaxnaşmalar və qarşıdurmalar meydanına çevrilə bilər.

***Mübariz FEYİZLİ***



## ABŞ Mərkəzi Bankı uçot dərəcəsini artırdı

# 2023-cü ildən bəri ilk dəfə...

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Mərkəzi Bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) sentyabrın 16-da verdiyi qərarla, uçot dərəcəsini 0,25 faiz bəndi artıraraq 3,75-4 faiz diapazonuna çatdırıb. Qərar inflyasiyanı cilovlamaq məqsədilə verilib və qiymət indeksinin 2 faizlik hədəfə endirilməsinə dəstək üçün inzibati təsir göstərəcəyi düşünülür. FES-in proqnozlarına görə, uçot dərəcəsi cari ilin sonunadək daha bir dəfə artırıla və təxminən 4,1 faizə çatdırıla bilər.

Uçot dərəcəsinə dair yeni qərar FES-in 2023-cü ildən bəri ilk dəfə artım siyasətinə getdiyini göstərir. Belə ki, qurum son 3 ildə pul siyasətini əsasən aşağı stavka və ya sabit dərəcədə saxlayırdı. Sonuncu dəfə 2026-cı il iyunun 17-də keçirilən iclasda verilən qərara əsasən, faiz dərəcəsi 3,50- 3,75 aralığında sabit saxlanılıb. Yəni, FES sabit uçot siyasətinin davam etdirilməsini məqsəduyğun hesab edərək mövcud stavkanı məqbul sayıb. FES sədri Kevin Uorşun ilk mesajlarından belə aydın olur ki, ABŞ-da inflyasiya hələ də yüksək səviyyədə qalır və hazırda qlobal bazarda enerji qiymətlərinin yüksək qalması inflyasiyanı daha da artıracaq. Xüsusilə də, yeni neft şokunun yaşanması mal və xidmətlərin dəyərini kəskin bahalaşdırmaqla inflyasiyanın hərarətini artıracaq. Ona görə də, anti-inflyasiya səddi çəkmək üçün sərt pul siyasətinə keçmək zəruridir.

### Tramp qərara sərt reaksiya verib

FES-in bu qərarı yeni sədr Kevin Uorşun rəhbərliyi altında qəbul edilən ilk artım addımı sayılır. Çoxları əvvəlki FES sədri Jerome Poveli iqtidarın kadrı olmadığını və faiz siyasətində administrasiyanın tələblərini icra etməyən maliyyəçi kimi tanısa da, Trampın kadrı hesab edilən Uorşun bu mövqeyi təəccüblə qarşılanıb. Yeni FES sədrinin faiz siyasətində administrasiyanın təşəbbüslərinə dəstək verərək daha mülayim pul siyasəti yürüdəcəyini düşünənlər də heyrət içindədir. Prezident Donald Trampın reaksiyası isə daha sərt olub. O, Federal Ehtiyat Sisteminin faiz dərəcələrini artırmaq qərarını yanlış hesab edərək, faizlərin dərhal aşağı salınmasını tələb edib. Tramp hesab edir ki, faiz dərəcələri 1 və daha aşağı səviyyədə olmalıdır.

ABŞ Prezidenti yüksək faiz dərəcələrinin ölkəni digər dünya iqtisadiyyatları ilə müqayisədə rəqabət baxımından əlverişsiz vəziyyətə saldığını bildirib: “Dünyanın demək olar ki, hər bir ölkəsini biz “belimizdə daşıyırıq” və bu, artıq belə davam edə bilməz”.

Ancaq ABŞ iqtisadçılarının böyük qismi Kevin Uorşun faiz dərəcələrini artırmasını normal hesab edərək qərarı ölkədəki iqtisadi vəziyyətdən qaynaqlandığını düşünür. Onların fikrincə, FES sədri düzgün addım atıb və ölkədə inflyasiya və iqtisadi artım perspektivləri ilə bağlı vəziyyət bu qərarın verilməsinə səbəb olub.



### FES-in addımı maliyyə bazarlarında gərginliyi artırıb

Faiz qərarı ilə bağlı FES heyətində müəyyən fikir ayrılıqları da yaşanıb. Əksər üzvlər faizin sabit saxlanmasına və ya artırılmasına səs versə də, bəzi bank nümayəndəsi faizlərin endirilməsini təklif edib. Həmin şəxslərin kriptobazarın fəal dəstəkçisi olduğu istisna edilmir, çünki aşağı faizlər dəhlizi investisiya və fond bazarlarında kriptovalyutanı, əsasən də bitkoini bahalaşdıra bilər. Hazırda bu bazarda durğunluq hökm sürür ki, investorlar mövcud mühitdən narahatdırlar. Xüsusilə də Trampa yaxın biznes iclası aşağı faiz dərəcəsi şəraitində virtual bazarın aktivləşməsinə çalışır.

Maraqlı odur ki, faiz dərəcələrinin artımı fonunda fond indekslərinin ucuzlaşacağını gözləyənlərin təsəvvürlərinin əksinə olaraq, rəqəmsal alətlərdə cüzi bahalaşma baş verib. Kriptovalyuta bazarında son sutka ərzində əsas aktivlər üzrə artım müşahidə olunub, “CoinMarketCap” platformasında “Bitcoin” 0,76 faiz bahalaşaraq 76 min dolları ötüb.

Ancaq ekspertlər bunu da süni spekulyasiya hesab edirlər və bir müddət rəqəmsal pulların və metalların bahalaşmayacağını düşünürlər. Onlar hesab edirlər ki, aşağı faiz dəhlizi maliyyə-bank sektorunda daha sərfəli və ucuz kredit mühitini təmin edərək, maliyyə qurumlarını əlverişli faiz dəhlizi çərçivəsində iqtisadiyyata böyükhəcmli pul buraxmasını stimullaşdırır. Ancaq indiki artım faizləri fonunda fond bazarı alətlərinin bahalaşacağını düşünməyə dəyməz.

### Qlobal investorlar gözləmə mövqeyindədir

ABŞ-ın uçot siyasəti qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, xüsusən də birjalarda virtual volatilliklərin baş verməsinə səbəb olur. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri artımlar nümayiş etdirir. FES-in yüksək faiz dərəcələri qlobal maliyyə və investisiya bazarını müəyyən qədər sıxır və səhmdarlar aktivlərə yüksək həcmlərdə kapital yatırmırlar.

Beləliklə, FES-in yuxarı diapazonlu uçot dərəcəsi qlobal mühitdə qeyri-müəyyənliklərin davam etməsinə səbəb olacaq, investorların kapital daralması fonunda gözləmə mövqeyində durmasını şərtləndirəcək. ABŞ-la yanaşı, qlobal investorlar arasında investisiya alətlərinin qızıl və kriptovalyuta yığımlarına transformasiyasını eyni səviyyədə saxlayacaq. Qlobal səhmdarlar, iri şirkətlər, suveren fondlar faiz dəhlizinin təsirləri fonunda investisiya alətlərinin dəyərini qoruyub saxlamağa üstünlük verəcək. Dünya iqtisadiyyatında qlobal müəyyənsizliyin artması səhmdarların digər sahələrə də sərmayələrini azaltmağa məcbur edəcək.

***E.CƏFƏRLİ***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**
"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744
**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



## Şənbə üçün nəzm



Ətəyimə daş yığmışam
Getdiyin yolun ağzından...
Özümü daşa qatmışam,
Keçib xoş günün azından...

Axtara-axtara gəlib
Ömrün qışına çatmışam...
Gölməçələrdə göllənib
palçıqdan "sən" yaratmışam...

tikdiyim donun düyməsiz,
ümiddən ilgək qoymuşam...
ömürdü...
öysüz-öyməsiz;
adını "gerçək" qoymuşam...

Ağrı...
Payız...
Dərman...
Şəki...
...Saçın sayır iki dəli...
...Yaman gülür güzgüdəki:
-Hardasan, ay Şəfa Vəli?

***

İtölən dərədə bir it ağladı,
Səsi sırğalandı qulaqlarımda...
Kimsə düyməsini əyri bağladı,
Dərdi yırğalandı qulaqlarımda...

İnsan ağrı-ağrı, əlac-əlacdı,
Səpilib dünyanın yaralarına...
Hardasa bir insan göyə əl açdı,
Qar düşdü saçının qaralarına...

Elə ağlayırdı o it...
Elə bil,
Yarası duzlanıb qaxac olurdu...
Nəyə ağlayırdı o it, kim bilir?!
Səsi hansı ömrə qaxınc olurdu?







*Şəfa Vəli*

***

...tellərimin ağrıyan,
Mənim ölən yerimsən...
Ulduzları sayıram
-milyonlardan birimsən...

Bu ağrıyan telimdən
Üç seçib-bir ayırıb
Ulduzlara göndərsəm,
Divin ayaq izindən
Bir tutam qar ayırıb
İzlərinə üfürsəm
Nağıl olarmı, görən?
...şeir olarmı, görən?

...bu qış gecəsində
Nağılım-noğulum ol...
Laylamın hecasında
Nur payım-oğulum ol...
Qızıma bəxt düzəldim-
Qarda bir beşik çəkim...
...əhd edim, qar ərisin,
Dərdimə ümid əkim...

Bu yaz döyüm qapını,
Deyim ki:
-Bax, gəlmişəm...
Gözümdə beşik şəkli,
Dilimdə "ah"...
Gəlmişəm...

Bir bayatı çək mənə...
Bir şeir də mən qoşum...
Nənəmin adın söylə,
Yaddaşımda cüt qoşum;
Xatirələr ələnib,
Urasında ümidim
Taleyə əsir qalıb...

...yenə yada düşmüsən...
Yəhərləyib həsrətin
Qara köhlən atını
Sənlə keçən hər günün
Sorağına düşmüşəm...
Xatirə xurcunumun
Naxışlı saçağında
Saçın ucun hörməyə
Bir salxımlıq yer qalıb...

Neynim... bu da taledi...
Dərdimin yaddaşında
nənəmdən bir bayatı,
Səndən bir şeir qalıb...

***

Sonu nöqtəyə həsrət
Cümlə qurdum adına...
Redaktə etdiyim mətnin
İçində keçdi adın,
Ləçəklədi sözlərim:
"Qurban olum adına..."
İlişdi işarələr barmağımın ucuna...

...Bu mətnin hər obrazı
Bir az mənə bənzəyir...
Bir az sənə bənzəyir...
Hərdən də lap böyüyüb
Bir az "BİZ"ə bənzəyir...
İkimizdən biri yaydı, biri qış...
İkimizin adındakı o həsrətə min alqış...

...Mətn-mətn qocalır
İçimdə şair olan...
...Dünya məndən bac alır,
Ömrüm dolanbadolan...
Gələr olsan, yolüstü
Şeirin başına dolan...

...Mətn qarma-qarışıq...
Mətn-yazdı, mən-sazaq...
...Gözüm yoluna aşiq,
Könlüm darıxan yolçu...
Redaktə eləyirəm...
Amma ağlımda
Ləçəyi tökülən armud ağacı,
Və sən-gəlişi uzaq...

***

Zehnimdə sərçələr yuva qurub, gəl,
Bir ovuc vüsal səp, mən də sevinim...
Bilirəm, bombozdu, yumrudu əcəl,
O gedir...
Gedirəm...
... Belə sevirəm...

Gözümdə səhra var, bulud olub gəl,
Bir əlçim kölgə sal yanağım üstə..
Hisslər süzmüsən, qupquru qalıb
Kədərim ömrümün yamağı üstə...

Hər həkim yamaqçı,
hər dərman yamaq-
Keyidən, yatıran, iştah gətirən...
Min ildi dilimdə adın umacaq,
Min ildi ürəyim sevda ötürən...

... Getdiyin uzaqlar elə tanışdı,
Xəyalım min dəfə dolanar-gəzər...
Sərçələr zehnimdə yuva qurmuşdu...
Bir şeir üfürdüm, uçub getdilər...

# Sərçənin itməkliyi

## *Təkamül tarixinə düşəcək. Bəs Ədəbiyyatdan nə gedəcək?*

Heç nə - bir neçə sətir yazı, unudulmaqda olan uşaq şeirləri, sevgi və təbiət nəğmələri. Tarixə çevrilən yaddaş haralardasa böyük data okeanlarının dibində yatıb gözləyəcək - kimsə axtarış versə, sərçələr də elə oradan cikkildəyib yanımıza qayıdacaq...

Yəqin, o vaxtlar indiki kimi olsaydı, dinozavrlar haqqında da hansısa müəllif öz səhifəsində kiçicik bir yazı yazmaqla kifayətlənəcəkdi. Əslində, sərçələrin itməkliyi dinozavrların yoxa çıxmaqlığı qədər tektonik hadisədir. Hərçənd, gözümüzün qabağında Aral və Urmu gölləri qaçıb getdi - içində də min cür flora və faunası ilə. Yaxşı ki, indi bütün çıxıb gedənlər özü ilə mətn - Ədəbiyyat aparır. Məsələn, dinozavrlara bu qismət olmamışdı, onların dövründə nə saray şairləri, nə salnaməçilər, nə də romançılar vardı. Bu mənada, sərçələrin "bəxti gətirib"...

Sərçələr tamamən çıxıb getsə, yaxşı olmayacaq. Sən demə, Bakıda da sərçələr yoxa çıxmaqdadırlar. Hələ Çini, Avropanı demirəm.

Elmdə "ev sərçələri" kimi təsnifatlaşdırılan adi sərçənin yer üzündən yoxa çəkilməkliyi böyük həyəcan doğurub. London Zoologiya Cəmiyyəti və Britaniya Ornitologiya Fondunun hesablamalarına görə, təkcə paytaxt şəhərində sərçələrin populyasiyası 71 faiz azalıb. Axı onlar vəhşi təbiətdə deyil, insanla yan-yana yaşamağı sevirlər.

Bəzən sərçələr tarlaları da dənləyib yoxa çıxarır, təsərrüfatlara kütləvi ziyan vururdular. Amma bunun da iki üzü varmış. 1959-cu ildə Cin lideri Mao Tszedunun göstərişi ilə dörd zərərvericinin (siçovul, ağcaqanad, milçək və sərçə) məhv edilməsi üçün kampaniya başladı. Beləcə, zərərvericilər ictimaiyyətin və mətbuatın köməyi ilə kütləvi şəkildə məhv edildi. Məsələn, Çində kənd əhalisi sərçə sürülərinin tarlalara qona bilməməsi üçün qazan-tavanı döyəcləyərək onları qorxudub havada saxlayırmış, cəmi on beş dəqiqə sonra bu təzyiqə dözməyib göydən yerə gələn sərçə cəsədləri maşınlara doldurulub daşınırmış. Nəticələr çox yaxşı idi - sonrakı il Çində heç vaxt görünməmiş məhsuldarlıq əldə edildi...

Qəribədir, Ədəbiyyat heç vaxt siçovulu, ağcaqanadı və milçəyi vəsf etməyib, amma sərçəni uşaq yaddaşımıza, sevgilərimizin içinə yazıb. Və heç vaxt da deməyib ki, sərçə tarlaları məhv edən zərərvericidir. Görəsən, gələcəkdə robot-insan bunu nəzərə alacaqmı?

Antarktida istisna olmaqla, sərçələr planetin hər tərəfində yaşayır. Mütəxəssislərin hesablamalarına görə, indilikdə Avropada sərçələr 70-80 faiz azalıb. Almaniya Təbiət və Biomüxtəlifliyin Qorunması Birliyinin (NABU) mütəxəssisləri isə deyir ki, paradoksal vəziyyət yaranıb: sərçələr elə indi də sürü halında park və xiyabanlara doluşur, burada onların



*Məqsəd Nur*

dən yeməsi üçün hər cür təbii və tullantı qidalar var. Di gəl, bir müddət sonra sürülər kütləvi şəkildə qırılır.

*Çin kimi olmasın?!*

1961-ci ildə Böyük Çin Qıtlığı başladı. İnsanlar ağac qabıqları və həşəratları yeyib dolanırdılar. Təxminən 30 milyona yaxın insan aclıqdan öldü. Çin Kommunist Partiyası isə, səhvini başa düşüb digər 3 zərərvericini deyil, məhz sərçəni təbiətə qaytarmaq üçün SSRİ-dən vaqonlarla sərçə sürüləri alıb öz ərazisində bəsləməyə başladı. Sən demə, sərçələr ekoloji tarazlığı qoruyub saxlayırmış: əsasən də, gül kimi məhsulu məhv edən çəyirtkələri və digər tırtılları yeyib özləri salamat qalırmış...

İnanmıram ki, sərçələrin itməkliyi indiki dünyanı ac qoya. Bir vaxtlar Çindən qovulmuş sərçələr sadəcə bu dünyanı tərk etmək istəyirlər. Onlar nə dinozavrlara bənzəyir, nə də sürü halında hansısa qonşu ölkədən alınıb-satılmaq istəyirlər...

Axı, Ədəbiyyatda qalırlar...



# 20 sentyabr Azərbaycanda Neftçilər Günüdür!

Hər il 20 sentyabr tarixi Azərbaycanda neft-qaz sahəsində çalışan işçilərin peşə bayramı - Neftçilər Günü kimi qeyd olunur.

Bu günün peşə bayramı kimi qeyd edilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli fərmanı ilə rəsmiləşdirilib.

Bu günün tarixi ölkəmizin neft sənayesi tarixində baş vermiş önəmli hadisə ilə bağlıdır. Belə ki, 1995-ci ilin 20 sentyabrında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi"nin imzalanmasının birinci ildönümü münasibətilə neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilib. Və bu görüşdən sonra hər il 20 sentyabrda Azərbaycan Prezidenti Heydər Əliyevin neft-qaz sənayesi kollektivləri ilə görüşləri mütəmadi xarakter alıb.

Zəngin neft və qaz sərvətlərinə malik olan Azərbaycan bütün dünyada "Neft diyarı", "Odlar diyarı" kimi tanınıb. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurub və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə həkk olunub.

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalanıb. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapıb. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib.

Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olub, sonralar qiymətləndirici quyuların nəticələrinə görə, bu ehtiyat 730 milyon tona çatıb və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilib, ümumi gəlirdən Azərbaycanın payına 80 faiz, sərmayəçilərin payına 20 faiz düşür.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olub.

Bu müqavilə haqlı olaraq Ümummilli Lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas tendensiyasını müəyyən edən və Azərbaycanı dünyanın neft ixracatçılarından birinə çevirən özül hesab edilir.

Azərbaycan artıq dünya bazarında özünü etibarlı neft ixracatçısı kimi təsdiqləyib.

"Neftçilər Günü"ndə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

Bayramınız mübarək, əziz neftçilər!

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1216
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova